Şəmsulla Aqayi

## Bir Daş Atdan Yüz Daş Üstən

Bir dağın ki aslanı yox
O qaya ki tərlanı yox
Bir düzün ki ceyranı yox
Bir daş atdan yüz daş üstən

Bir ömür ki vəfası yox
O həyət ki səfası yox
Bir m'əşuq ki cəfası yox
Bir daş atdan yüz daş üstən

Bir şeir ki kəsəri yox
O öyüd ki əsəri yox
Bir sevgi ki küsəri yox
Bir daş atdan yüz daş üstən

Bir gözəl ki vüqarı yox
O adam ki çıxarı yox
Bir suyun ki axarı yox
Bir daş atdan yüz daş üstən

Bir ocaq ki istisi yox
O evin ki tüstüsü yox
Bir dodaq ki püstəsi yox
Bir daş atdan yüz daş üstən

*Şəmsulla* sən telli sazsan
Gül çiçəkli bahar yazsan
Əyər belə şeir yazsan
Bir daş atdan yüz daş üstən